2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 29 dekabr 2014-cü il tarixli 82 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 29 dekabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Validə Kazımova 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Lerik rayonu Molalan kənd sakini Əliyev Səttar İsaq oğlunun 2014-cü il dekabrın 29-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.2-ci və 112.3-cü maddələrinin tələblərinə uyğun olaraq göndərilməmişdir. Belə ki, 112.2-ci maddənin tələbinə görə Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər. 112.3-cü maddədə isə göstərilir ki, şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, həmin şəxslər dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət edə bilərlər.

Lerik rayonu Molalan kənd sakini Əliyev Səttar İsaq oğlu 2014-cü il dekabrın 29-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, səsvermə günü 78 saylı Lerik seçki dairəsi üzrə Molalan bələdiyyəsinin əhatə etdiyi seçki məntəqələrində qanun pozuntularının olduğunu iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Göründüyü kimi müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdur. Belə halda, yəni şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olduqda yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə görə həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 8.6-cı bəndinə əsasən **r ə y ə g ə l d i m** :

1. Lerik rayonu Molalan kənd sakini Əliyev Səttar İsaq oğlunun 2014-cü il dekabrın 29-da Mərkəzi Seçki Komissiyasına daxil olmuş 82 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 78 saylı Lerik seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Validə Kazımova